**Ramil Əlöysət oğlu Əsgərov**

**UOT:339.13:339.13; JEL:Q10;M10;Q17.**

# Aqrar sahədə biznes mühitinin formalaşmasının bəzi məsələləri

***Xülasə***

*Tədqiqatın məqsədi:- aqrar sahədə biznes mühitinin spesifik xüsusiyyətlərini və biznes mühitinin funksiyalarını müəyyənləşdirməkdən ibarətdir. Tədqiqatın metodologiyası: tədqiqat işində müqayisəli təhlil, qruplaşdırma, ümumiləşdirçə və təhlil metodlarından istifadə edilmişdir. Tədqiqatın tətbiqi əhəmiyyəti: ərzaq təhlükəsizliyinin təmin edilməsi və aqrar sahədə mülkiyyət mənsubiyyətindən asılı olmayaraq təsərrüfat subyektlərinin səmərəli geniş təkrar istehsal rejimində fəaliyyət göstərməsi müxtəlif amillərdən, o cümlədən əlveriıli biznes mühitinin formalaşdırılmasından bilavasitə asılıdır. Bu baxımdan aqrar sahədə biznes mühitinin səciyyəvi cəhətlərinin müəyyənləşdirilməsi və onun funksiyalarının konkretləşdirilməsi, eləcə də sahənin spesifik xüsusiyyətlərinin ön görülməsi mühüm əhəmiyyət kəsbedir. Tədqiqatın nəticələri: aqrar sahədə əlverişli biznes mühitinin formalaşdırılması, sahəninnn maraqları nəzərə alınmaqla biznes mühitinə təsir göstərən destruktiv amillərin amillərin və tendensiyaların neytrallaşdırılması ilə bağlı tövsiyyə xarakterli təkliflər irəli sürülmüşdür. Tədqiqatın orijinallığı və elmi yeniliyi: aqrar sahədə biznes fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinə, biznes mühitinin yaxşılaşdırılmasına, mülkiyyət mənsubiyyətindən asılı olmayaraq təsərrüfat subyektlərinə bərabər şərait yaradılmasına xidmət edər şərtlər və istiqamətlər müəyyən edilmişdir.*

***Açar sözlər**: aqrar sahə, bines, biznes fəaliyyəti, biznes mühiti, biznes cəlbediciliyi, geniş təkrar istehsal, kənd təsərrüfatı məhsullarının istehsalı.*



## Giriş

Aqrar sahə əhalinin kənd təsərrüfatı və ərzaq məhsullarına, sənayenin xammala olan ehtiyaclarının ödənilməsində əhəmiyyətli rol oynamaqla ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsinin maddi əsaslarını fformalaşdırır. Ölkədə kənd təsərrüfaatı və ərzaq məhsullarının istehsalını artırmadan ölkənin ərzaq təhlükəsizliyini təmin etmək mümkün deyildir. Belə bir şəraitdə isə ölkənin ərzaq məhsulları üzrə idxal asılılığı yaranır ki, bu da bütövlükdə dövlətin iqtisadi suverenliyinin xarici təhdidlərə məruz qalmasına gətirib çıxarır. Bazar iqtisadiyyatı şəraitində ölkədə kənd təsərrüfatı və ərzaq məhsulları istehsalının artırılması, istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi aqrar sahədə əlverişli biznes mühitinin formalaşdırılmasından bilavasitə asılıdır. Aqrar sahədə biznes mühiti kifayət qədər mürəkkəb bir system olub daxili və xarici təhdidlərə həssaslığı ilə şərtlənir.

## Aqrobiznes mühitinin spesifikası

Məlum olduğu kimi cəmiyyətdə məhsuldar qüvvələrin və istehsal münasibətlərinin inkişafı, bazar iqtisadi münasibətlərinin və biznes fəaliyyətinin də sərhədlərinin və əhatə dairəsinin qoloballaşmasına gətirib çıxarmışdır. A.B.Abbasov, S.A.Abbasovun fikrincə biznes - istehlakçıların tələbatının ödənilməsi və mənfəətin əldə edilməsi məqsədilə təşəbbüskar insanlar arasındakı seüzar münasibətlərin məcmusudur. Biznes maddi, əmək və maliyyə resurslarından istifadə etməklə mənfəətin (gəlirin) alınmasına yönəldilən birgə fəaliyyət naminə bazar iştirakçıları arasındakı işgüzar münasibətdir. Biznes mənfəətin alınması və jəxsi işin inkişaf etdirilməsi məqsədilə xüsusi və borc vəsaitlər hesabına həyata keçirilən iqtisadi fəaliyyətdir. Biznes mənfəət (gəlir) əldə etmək üçün iqtisadi fəaliyyət növü olub «iş», «işgüzar» mənasını daşıyır. Lakin biznes sadəcə olaraq iş deyil, o insanlar arasında qurulan

*©Ramil Əlöysət oğlu Əsgərov Azərbaycan Dövlət Aqrar Universiteti, doktorant. E-mail: Ramil_Asgarov@mail.ru*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

işgüzar münasibətlərdir. [1]. Müəllifin fikirlərində maraq doğuran məqamlardan biri də ondan ibarətdir ki, biznes fəaliyyətinə daha çox işgüzar aspektdən yanaşılır. Lakin, onu da nəzərə almaq lazımdır ki, biznes fəaliyyəti həm də sosial-iqtisadi aspektləri özündə ehtiva edir. Biznes fəaliyyətinin müvəffəqiyyəti əlverişli biznes mühitinin formalaşdırılmasından bilavasitə asılıdır. Doğrudur bir sıra hallarda tədqiqatçılar sahibkarlıq və biznes mühitinin sintezindən də istifadə edirlər. Ümumiyyətlə biznes mühitinin formalaşdırılması müxtəlif kriteriyaları özündə birləşdirir. Dünya bankı sahibkarlıq mühitinin keyfiyyətini təhlil edərkən biznesin inkişafım ləngidən 13 amili seçmişdir: korrupsiya, məhkəmə sisteminin işi, cinayətkarlıq, maliyyələşdirmə mənbələrinə əlçatma, iqtisadiyyatın qeyri-formal sektoru tərəfindən rəqabət, enerji və nəqliyyat, vergi dərəcələrinin səviyyəsi vergi orqanlarının işi, lisenziyanın verilməsi, ticarət tənzimənməsi, əmək qanunvericiliyi, heyətin ixtisas səviyyəsi.

Postsovet ölkələrində, o cümlədən, Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin inkişafını ləngidən əsas səbəblər qismində korrupsiya, vergi dərəcələrinin yüksək olması, maliyyliəşdirməyə və kreditləşdirməyə əlçatmanın məhdudluğu, lisenziyaların verilməsindəki çətinliklər göstərilir. Azərbaycan hökuməti sahibkarlıq mühitinin yaxşılaşdırılması istiqamətində mütəmadi tədbirlər həyata keçirir. Sahibkarlığın inkişafına dövlət dəstəyinin gücləndirilməsi, lisenziyalaşdırılan fəaliyyət növlərinin sayının azaldılması, lisenziyaların «Asan Xidmət» Mərkəzləri tərəfindən verilməsi, həmçinin sahibkarları incidən şəxslərin ciddi cəzalandınlması barədə görülən konkret tədbirlər buna bariz sübutdur. Sahibkarlıq mühitinin keyfiyyəti və iqtisadi artım indikatorları arasında sıx qarşılıqlı əlaqə vardır. Belə ki, Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları çərçivəsində müasir infrastrukturların yaradılması biznes mühitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər milli iqtisadiyyatın, xüsusilə qeyri-neft sektorunun davamlı inkişafına təkan vermişdir. [1]. İqtisadiyyatın liberallaşdırıldığı və ölkənin beynəlxalq təsərrügatçılıq sisteminə inteqrasiya olunduğu müasir şəraitdə aqrar sahənin maraqlarına destruktiv təsir göstərən mühit amillərinin və bu qəbildən tendensiyaların təsiri də bir sıra hallarda qaçılmaz xarakter daşıyır. Belə bir situasiya isə mülkiyyət mənsubiyyətindən asılı olmayaraq kənd təsərrüfatı əmtəə istehsalçılarının rentabelli fəaliyyət göstərmək imkanlarını əngəlləyir.



Aqrar sahədə biznes mühiti məhdud anlamda istehsal edilən kənd təsərrüfatı, ərzaq və qida məhsullarının səmərəli şəkildə reallaşdırılmasına əlveriıli şərait yaradan kommersiya münasibətlərinin məcmusunu özündə əks etdirir. Məlum həqiqətdir ki, liberal iqtisadiyyat şəraitində aqrar sahənin məhsullarının reallaşdırılması azad rəqabət və bazaar kanalları vasitəsilə həyata keçirilir. İqtisadiyyatın digər sahələrindən fərqli olaraq aqrar sahədə spesifik xüsusiyyətlər və şərtlər hakim mövqe tutduğundan adı çəkilən sahə azad bazaar qanunları və sərbəst rəqabət şəraitində yüksək səmərəli fəaliyyət gerçəkləşdirmək iqtidarında olmur. Azad rəqabəti özundə etiva edən biznes mühiti xüsusilə az torpaqlı xırda əmtəə istehsalçılarının, hətta orta həcmli əmtəəlik təsərrüfatların yaşam fəaliyyətini məhdudlaşdırır. Aqrar sahədə biznes mühitinin yaxşılaşdırılması dövlət tərəfindən həyata keçirilən iqtisadi siyasətin və tənzimlənmə siyasətinin tipindən və xarakterindən də əhəmiyyətli dərəcədə asılıdır. Təsadüfü deyildir ki, inkişaf etmiş ölkələr aqrar sahədə biznes mühitinin yaxşılaşdırılması ilə davamlı tədbirlər həyata akeçirir, kompleks maliyyələşmə proqramları qəbul edirlər. Son illər ölkəmizdə də bu istiqamətdə davamlı və silsilə tədbirlər gerçəkləşdirilməkdədir. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi” ndə aqrobiznes mühitinin yaxşılaşdırılması istiqamətində də zəruri hədəflərdə müəyyənləşdirmişdir. Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair 2020- ci ilədək strateji baxış dayanıqlı inkişaf prinsiplərinə əsaslanan, ərzaq təhlükəsizliyinin

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

daha da gücləndirilməsini təmin edən, iqtisadiyyatın şaxələndirilməsinə və kənd yerlərində sosial rifahın yüksəlməsinə töhfə verən rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsulları istehsalı və emalı sektorunun formalaşdırılması üçün əlverişli mühit yaratmağı nəzərdə tutur. Strateji baxışın şərhi Strateji Yol Xəritəsinin reallaşdırılması hesabına müvafiq tənzimlənmə sisteminin təkmilləşdirilməsinə, o cümlədən dövlət yardımlarının effektivliyinin artırılmasına və bazarda rəqabətin daha da yaxşılaşdırılmasına nail olunmaqla, əlverişli biznes mühiti formalaşdırılacaqdır. Aidiyyəti tənzimləmə orqanlarının potensialının gücləndirilməsi, dövlət yardımlarının inkişaf məqsədlərinə uyğunlaşdırılması, qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi, məhsul istehsalı, satışı və istehsal vasitələri bazarında rəqabət mühitinin inkişaf etdirilməsi, maliyyə resurslarına çıxışın asanlaşdırılması, bazar infrastrukturunun təkmilləşdirilməsi və bazara çıxış imkanlarının yaxşılaşdırılması, informasiya-məsləhət xidmətlərinin inkişaf etdirilməsi və digər istiqamətlərdə kompleks işlər görüləcəkdir. Nəticədə, təbii resurslardan səmərəli istifadə olunması, təsərrüfat subyektlərinin fəaliyyətinin gücləndirilməsi, kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı sahələrinin dəyər zənciri üzrə inkişaf etdirilməsi üçün şərait yaradılacaq, bununla da ölkədə ərzaq təhlükəsizliyinin dayanıqlılığı təmin olunacaq, qeyri-neft sektoru üzrə ixrac həcminin artımına nail olunacaq və kənd təsərrüfatı sahəsində çalışanların gəlir əldəetmə imkanları yaxşılaşacaqdır. Strateji Yol Xəritəsində prioritetlər üzrə qeyd edilmiş bəzi tədbirlərin əsas fazası 2020-ci ildən sonrakı dövrdə həyata keçiriləcəkdir. 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üzrə 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış ənənəvi təsərrüfatçılıqdan bazaryönümlü əlavə dəyər yaradan intensiv təsərrüfatçılığa keçidin gücləndirilməsi hesabına rəqabətqabiliyyətli aqrobiznesi formalaşdırmağı nəzərdə tutur. Uzunmüddətli baxışın şərhi Strateji Yol Xəritəsinin həyata keçirilməsi nəticəsində əlverişli biznes mühitinin yaradılması sayəsində, bir tərəfdən, ailə əməyinin üstünlük təşkil etdiyi, daha çox şəxsi istehlak tələbatı üçün məhsul istehsal edən kiçik ailə-kəndli təsərrüfatlarının fəaliyyətinin bazaryönümlülüyünün gücləndirilməsi və konsolidasiyası, digər tərəfdən isə kommersiyaəsaslı iri aqrokomplekslərin yaradılması və emal sənayesi ilə kənd təsərrüfatı məhsulları istehsalı arasında səmərəli inteqrasiya əlaqələrinin gücləndirilməsi, habelə bazar infrastrukturunun inkişaf etdirilməsi hesabına müvafiq keyfiyyət tələblərinə uyğun istehsal potensialı artırılacaqdır. Eyni zamanda, kənd təsərrüfatı istehsalında qabaqcıl texnologiyaların tətbiqi təcrübəsinin genişləndirilməsi, istehsalçıların bilik və bacarıqlarının artırılmasına imkan verən elm, təhsil və məsləhət xidmətləri sisteminin inkişaf etdirilməsi nəticəsində məhsuldarlıq göstəricilərinin yüksəldilməsi təmin olunacaqdır. Bütün bunların nəticəsi kimi, 2025-ci ilədək kənd təsərrüfatı məhsullarının qeyri-neft ixracındakı payı bu məhsulların istehsal həcminin və səmərəliliyinin artırılmasına tətbiq edilən məqsədyönlü yanaşma əsasında əhəmiyyətli dərəcədə artacaqdır. 2025-ci ilədək olan dövr üzrə uzunmüddətli baxış çərçivəsində müəyyən edilmiş məqsəd kənd təsərrüfatı sektorunun tam müasirləşdirilməsi, onun rəqabət qabiliyyətinin gücləndirilməsidir. Buraya məhsulların istehsal həcminin artırılması, yüksək dəyər yaradan bitkiçilik məhsullarının istehsalı və kənd təsərrüfatı məhsulları emalının dəyər zəncirinin seçilmiş sahələri üzrə artırılması daxildir. Növbəti on ildə Azərbaycanda xüsusi bitkiçilik məhsullarının, məsələn, meyvə, qoz–fındıq və tərəvəz məhsullarının istehsal həcminin artırılması və bununla da həmin məhsulların emalı sənayesində rəqabət qabiliyyətinin gücləndirilməsi diqqət mərkəzində saxlanılacaqdır. Azərbaycan yerli istehsalda əvvəllər daha çox paya sahib olmuş, dəyər yaradan sənaye məhsullarının (məsələn, pambıq, çay və tütün məhsullarının) istehsalında və ixracında rəqabət üstünlüyünə malik olacaqdır. Bundan başqa, belə məhsulların ixracı artırılacaq, onların idxalından asılılıq azaldılacaq və nəticədə daha çox



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

gəlir əldə ediləcəkdir. Bitkiçilik məhsullarının istehsalının artırılması istiqamətində görülən tədbirlər çərçivəsində kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin dəyər zəncirində daha mühüm rol oynaması təmin ediləcəkdir. Prioritet təşkil edən bitkiçilik məhsulları əsas ticarət marşrutlarına və nəqliyyat qovşaqlarına yaxın yerləşən emal müəssisələri vasitəsilə daha yüksək dəyər yaradan məhsul kimi yerli və xarici bazarlara çıxarılacaqdır. [9]. Strateji uol xəritəsində qeyd edildiyi kimi aqrar sahədə biznes mühitinin yaxşılaşdırılması dövlətin iqtisadi və institutsional tənzimləmə tədbirlərinin effektivliyi ilə sıx bağlıdır. Ümumiyyətlə götürdükdə Strateji yol xəritəsində kompleks tədbirlər sistemi müəyyənləşdirilmiş və dövlətin məsul qurumları kimi Kənd Təsərrüfatı Nazirliyi və İqtisadiyyat Nazirliyi qəbul edilmişdir.

Aqrar sahədə biznes mühitinin yaxşılaşdırılması kənd təsərrüfatında orta və iri təsərrüfatların formalaşdırılmasından, mülkiyyət mənsubiyyətindən asılı olmayaraq kənd təsərrüfatı əmtəə istehsalçılarının emal müəssisələri ilə inteqrasiya münasibətlərinin inkişaf etdirilməsində və onların müasir tələblərə cavab verməsindən bilavasitə asılıdır. Nəzərə almaq alazımdır ki, xırda kənd təsərrüfatı əmtəə istehsalçıları ilə emal müəssisələri inteqrasiya münasisbətlərinə daxil olmağa iqtisadi və institutsional baxımdan stimullu olmurlar. Odur ki, kənd təsərrüfatı müəssisələrinin iriləşdirilməsi, kənd təsərrüfatı kooperativlərinin yaradılması mühüm əhəmiyyətə malikdir. Əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor Bəyalı Ataşov tədqiqatlarında qeyd edir ki, Aİ ölkələrinin aqrar sahələrində məhsul istehsalına təsirin müasir formaları sırasında məhsulun kəmiyyət və keyfiyyətinin dövlət tərəfindən tənzimlənməsi, kooperasiyanın təşviq edilməsi, şaquli inteqrasiyanın inkişafı kimi formalar qeyd edilə bilər. Müasir dövrdə istehsalın məhdudlaşdırılması proseslərinin stimullaşdırılması, diqqət mərkəzinin məhsul istehsalından onun satışına doğru dəyişməsi, kənd təsərrüfatı bazarlarının tənzimlənməsi meyilləri güclənir. Fransa dövləti kənd təsərrüfatı sahəsinə fəal dəstək verir. Fransada bu sahənin fəaliyyətini tənzimləyən bir sıra qanunlar işlənib hazırlanmışdır. Məsələn, torpaq sahələrinin becərilməsini asanlaşdırmaq üçün onlarm iriləşdirilməsi haqqında 11 iyul 1975-ci il tarixli qanun, xam torpaqlardan istifadə edilməsi haqqında 4 yanvar 1978-ci il tarixli qanun, torpaq quruluşu və torpaq sahələrinin iriləşdirilməsi proseduru üzrə komissiya yaradılması haqqında 4 iyul 1980-ci il tarixli qanun bu qəbildəndir. İcarə müqaviləsinə bir sıra qanunlar həsr edilmişdir. Dövlət təsirinin iqtisadi və ya stimullaşdırıcı metodlarından həm ayrı-ayn bitkilərin istehsalının genişləndirilməsi üçün, həm də bəzi məhsul növlərinin (meyvə, tütün və sair) ifrat istehsalını məhdudlaşdırmaq üçün istifadə edilir. Dövlət müdaxiləsi birbaşa kömək formasında həyata keçirilir. [10. Səh 376-377].

Nəzərə almaq lazımdır ki, artıq biznes mühiti belə klassik anlayışlarından əhəmiyyətli dərəcədə kənarlaşmış, azad bazaar iqtisadiyyatı biznes mühitinin təsirini bütün sahələrdə olduğu kimi aqrar sahədə də geniş təkrar istehsalın bütün mərhələlərində yayılmasına səbəb olmuşdur. Onu da əlavə etmək lazımdır ki, aqrar sahədə biznes mühitinin formalaşdırılmasına qlobal təhdidlərin də təsiri əhəmiyyətli dərəcədə yüksəkdir. Doğrudur, qlobal iqlim dəyişiklikləri, pandemiyalar və s. ümumbəşəri xarakter daşıyır. Lakin bununla yanaşı qeyri-xoş məramlı rəqabət mühiti də aqrar sahədə biznes mühitinə də təsirsiz qalmır. Bu müasir şəraitbə qloballaşma prosesinin və eləcə də iqtisadi liberallaşmanın, beynəlxalq səviyyədə azad ticarətin genişlənməsi ilə sıx əlaqədardır. Eyni zamanda beynəlxalq əmək bölgüsünün dərinləşməsi və bu sahədə yeni sektorial proseslərin daha çox qabarıq xarakter daşıması, alternativ vektorların təsir gücünün artması biznes mühitində yeni parodiqmalar doğurur.

**Aqrobiznesin formalaşmasının tarixi aspektləri**

Məlum olduğu kimi, biznes və sahibkarlıq fəaliyyəti bazar iqtisadiyyatının ayrılmaz tərkib hissəsini təşkil etməklə hər bir ölkədə adı çəkilən iqtisadi mexanizmlər in inkişaf etdirilməsi ölkənin beynəlxalq təsərrüfatçılıq sisteminə inteqrasiyasının mühüm tərkib



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

hissəsini təşkil edir. Biznes faliyyəti iqtisadi azadlıqlar və xüsusi mülkiyyətlər üzərində qurulmaqla azad cəmiyyətin inkişafını özündə etiva etməkdədir. İqtisadi ədəbiyyatlarda biznes fəaliyyəti cəmiyyətin ehtiyaclarının və tələbatlarının ödənilməsi məqsədiylə məhsulların alqı-satqısını nəzərdə tutur. Biznes fəaliyyəti bazar iqtisadiyyatının bütün iştirakçıları arasında, o cümlədən istehsalçılar və istehlakçılar arasındakı iqtisadi və sosial münasibətlər sistemini özündə əks etdirir və nəzərə almaq lazımdır ki, müasir şəraitdə biznes fəaliyyətinə nəinki istehsalçılar və istehlakçılar, eyni zamanda muzdlu işçilər və hətta dövlət sektorunun ayrı-ayrı institutsional qrumları da daxil olur. Dünya təcrübəsi göstərir ki, qloballaşma prosesinin dərinləşdiyi müasir şəraitdə xüsusilə karbohidrogen resursları ilə zəngin olan və həmin resursların ixracın strukturunda əhəmiyyətli yer tutduğu ölkələrdə postneft iqtisadiyyatının formalaşdırılması obyektiv zərurətdən irəli gəlir. Postneft iqtisadiyyatının formalaşdırılması üçün iqtisadiyyatın şaxələndirilməsi mühüm strateji əhəmiyyəti ilə seçilir. Ümumiyyətlə, qloballaşma prosesinin dərinləşdiyi müasir şəraitdə dünya bazarında neftin qiymətlərində kəskin tərəddüdlərin yaranması bütövlükdə iqtisadiyyatın şaxələndirilməsi və alternativ ixrac sektorunun formalaşdırılmasını zərurətə çevirməkdədir. Karbohidrogen resursları bazarında baş verən tərəddüdlər əslində iqtisadiyyatın şaxələndirilməsini obyektiv zərurətə çevirməklə yanaşı, eyni zamanda ölkənin iqtisadi təhlükəsizliyinə də xarici təhdidləri gücləndirir. Hazırda müstəqilliyini əldə etmiş və beynəlxalq təsərrüfatçılıq sisteminə uğurla inteqrasiya olunmuş Azərbaycan Respublikasında postneft iqtisadiyyatı baxımından iqtisadiyyatın şaxələndirilməsi və bu baxımdan iqtisadiyyatın mühüm strateji əhəmiyyətli sahəsi olan kənd təsərrüfatında, bütövlükdə aqrar sahənin davamlı inkişafının təmin edilməsi mövcud reallıqlardan və eləcə də obyektiv zərurətdən irəli gəlir. Postneft iqtisadiyyatında iqtisadiyyatın şaxələndirilməsi prosesinin ən mühüm tərkib hissəsini biznesin şaxələndirilməsi prosesi təşkil edir. Bu baxımdan iqtisadiyyatın mühüm strateji əhəmiyyətli sahəsi olan aqrar sahədə biznes fəaliyyətinin uğurla gerçəkləşdirilməsi və biznes mühitinin yaxşılaşdırılması vacib şərtlərdən biridir.



Müasir şəraitdə aqrar sahə kənd təsərrüfatı və eləcə də onunla sıx qarşılıqlı əlaqəyə malik olan sahələrin, o cümlədən maddi texniki resurslarla təchizat, eləcə də emal sənayesi və ən nəhayət məhsulların istehsalçılara çatdırılması qədərki bütün mərhələləri özündə əks etdirir. Ümumiyyətlə, iqtisadiyyatın şaxələndirilməsi aspektindən yanaşdıqda belə qənaətə gəlmək olar ki, aqrar sahənin inkişaf etdirilməsi bütövlükdə ixracın strukturunda da yeni keyfiyyət dəyişikliklərinə nail olmasını özündə ehtiva edir. İqtisadiyyatın, istərsə də onun mühim tərkib hissəsi olan biznes sahələrinin şaxələndirilməsi baxımından aqrobiznes fəaliyyətinin formalaşdırılması və onun inkişafına dövlət tərəfindən zəruri dəstəyin göstərilməsi ölkənin iqtisadi təhlükəsizliyi baxımından mühüm əhəmiyyətə malikdir. Qeyd etmək lazımdır ki, aqrobiznes anlayışı ilk dəfə iqtisadi ədəbiyyata 1968-ci ildə Amerikan iqtisadçısı R.Qoldberq tərəfindən gətirilmişdir. Iqtisadi dövriyyəyə daxil olduğu ilkin dövrlərdə aqrobiznes fəaliyyəti ilkin olaraq klassik anlam və klassik sərhədlər daxilində təbliğ edilsə də, lakin sonralar cəmiyyətdə məhsuldar qüvvələrin və istehsal münasibətlərin inkişafı sürətləndikcə aqrobiznes özünün iqtisadi sərhədlərini aşaraq kifayət qədər daha çox geniş məzmun əhatə etməkdədir.

**Aqrobiznes fəaliyyətinin vəzifələri, spesifik xüsusiyyətləri və onu səciyyələndirən amillər**

Müasir şəraitdə aqrobiznes faliyyətinin daha geniş sosial iqtisadi anlam əldə etməsi onun iqtisadiyyatın şaxələndirilməsi baxımından daha çox prioritetlik qazanmasını şərtləndirir. Biznes fəaliyyəti mənfəət əldə etmək və eləcə də cəmiyyətin sosial iqtisadi ehtiyaclarının ödənilməsinə yönəldilmiş fəaliyyəti nəzərdə tutur. Aqrobiznes fəaliyyəti zamanı ilk növbədə kənd təsərrüfatının və xammalın emal müəssisələrinə çatdırılmasına, kənd

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

təsərrüfatı istehsal edilən məhsullarının istehlakçılara çatdırılmasının qədərki bütün proseslerde biznesi və kommersiya proseslərinin məzmunu nəzərdə tutulur. P.V.Leşroviskinin fikrincə müasir şəraitdə aqrobiznes fəaliyyəti iqtisadiyyatın inkişafında əhəmiyyətli rol oynayır və aşağıdakı vəzifələrin yerinə yetirilməsinə istiqamətlənir: kənd yerlərinin sosial-iqtisadi inkişafı; yüksək keyfiyyətli qida məhsullarının istehsalı; ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi və cəmiyyət üzvlərinin sosial rifahının yaxşılaşdırılması. Hər bir ölkənin aqrar sektorunun dünya bazarında mövqenin möhkəmləndirilməsi məhsulun rəqabətqabiliyyətinin artırılmasından bilavasitə asılıdır. Müəllif hesab edir ki, hazırda xüsusilə kənd yerlərində iqtisadi fəal əhalinin əhəmiyyətli hissəsi məzh öz məşğulluğunu aqrobiznes sektorunda tapmaqdadır. Aqrobiznes fəaliyyəti xüsusilə kənd təsərrüfatında və onunla qarşılıqlı əlaqəyə malik olan sahələrdə kiçik, orta və iri biznes fəaliyyətini reallaşdırmağa əlverişli şərait yaradır və bundan əlavə yüksək rentabelli məhsullar istehsalının həyata keçirilməsi və eləcə də kənd təsərrüfatında rəqabət üstünlüklərinin qorunub saxlanılması mümkün ola bilir. [2].

Agrobiznes faəliyyəti iqtisadiyyatda biznes fəaliyyətinin mühim tərkib hissəsini təşkil etməsinə baxmayaraq özünəməxsus spesifik xüsusiyyətlərə malikdir. Ümumiyyətlə, aqrobiznes fəaliyyətinin spesifik xüsusiyyətləri ilk növbədə onun aqrar sahədə fəaliyyət göstərməsi ilə sıx əlaqədardır və bütün bunlar aqrar sahənin spesifik xüsusiyyətlərindən irəli gəlir. Məlum həqiqətdir ki, kənd təsərrüfatı və onunla qarşılıqlı əlaqəyə malik olan digər sahələr iqtisadiyyatın mühüm strateji əhəmiyyəti sahəsini təşkil edir və aqrar sahənin özünəməxsus spesifik xüsusiyyətlərə malik olması iqtisadiyyatın digər sahələrindən fərqləndirir və onun dövlət himayəsi olmadan bazar təsərrüfatçılıq sisteminin tələblərinə uyğun şəkildə inkişaf etdirilməsi imkanlarını məhdudlaşdırır. P.V.Leşroviski hesab edir ki, aqrobiznes faliyyətinə rəqabətin yüksək səviyyəsini eləcə də aqrar sahəyə dövlətin müdaxiləsini, risklərin yüksək səviyyəsinin və eləcə də kənd təsərrüfatı istehsalının özünəməxsus xüsusiyyətlərini şamil etmək olar. Müəllifin fikirincə aqrobiznes fəaliyyəti üçün xarakterik cəhətlərə aşağıdakıları aid etmək olar: kənd təsərrüfatı istehsalının təbii-iqlim şəraitindən əhəmiyyətli dərəcədə asılılığı; kənd təsərrüfatı məhsullarının istehsalının mövsümi xarakter daşıması, o cümlədən əmək resursları istehsal və maliyyə resursların ilə bağlı aqrobiznes faliyyətində özünəməxsus yanaşmanın mövcudluğu; bioloji-sosial və istehsal-iqtisadi faktorlarının uyğunlaşması və eləcə də adı çəkilən faktorların kənd təsərrüfatı məhsulları istehsalının iqtisadi səmərəliliyinə əhəmiyyətli dərəcədə təsir göstərməsi; aqrar istehsalda başlıca istehsal vasitəsi kimi torpaq resurslarının əhəmiyyətli rola malik olması; kənd təsərrüfatı məhsullarının saxlanma müddətinin digər məhsullarla müqayisədə əhəmiyyətli dərəcədə aşağı olması; iqtisadiyyatın digər sahələri ilə müqayisədə kənd təsərrüfatında qiymət disparitetinin əhəmiyyətli təsir vasitəsinə çevrilməsi. [2].

Kənd təsərrüfatının özünəməxsus spesifik xüsusiyyətlərinə malik olması təbii ki, aqrobiznesin təbiətinə də öz təsirini göstərir və bu baxımdan aqrobiznes fəaliyyəti əsasən kənd təsərrüfatında geniş təkrar istehsal prosesinə əhəmiyyətli dərəcədə təsir göstərir. Məlum olduğu kimi, kənd təsərrüfatında və iqtisadiyyatın digər sahələrində maliyyə nəticələri əsas etibarilə biznes və kommersiya prosesləri nəticəsində əldə edilir. Kənd təsərrüfatının spesifik xüsusiyyətlərə malik olmasın nəticəsidir ki, inkişaf etmiş ölkələrdə aqrar sahənin, o cümlədən kənd təsərrüfatının inkişafına iri həcmli dəstək verilir. Nəzərə almaq lazımdır ki, ABŞ-ın aqrar sektorunda 23 milyon nəfərdən çox insan işləyir və bu göstərici ölkədə məşğul əhalinn 18%-ni təşkil edir. Bu baxımdan aqrar sektorun tənzimlənməsi eyni zamanda bu sektorda çalışanların gəlirlərinin artırılması, əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi, regionlarda sosial-iqtisadi problemlərin həllinə daha çox potensialın formalaşdırılması prosesinə müsbət təsir göstərir. [5]. Rus iqtisadçısı A.Y. Popovun fikrincə, iqtisadi cəhətdən inkişaf etmiş



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Kanadada aqrar sahənin tənzimlənməsi məsələləri dövlətin xüsusi dəqqət mərkəzindədir. Kanadada yaz tarla işlərinin aparılmasına və payızlıq əkinlərin təşkilinə faizsiz kreditlər verilməsi təcrübəsi vardır. Bu ölkə dünyanın ən iri kənd təsərrüfatı məhsullarının istehsalçılarındandır vı ayrı-ayrı mühüm qida məhsullarının istehsalına subsidiyalar ayırır. Bu istiqamətlərdə çoxlu sayda dəstək proqramları diqqət çəkir, məsələn, gəlirlərin sabitləşdirilməsi proqramı mühüm qida məhsullarının sığortalanması proqramı, yığım hesablarının yaradılması və təbii fəlakətlrdən dəyən zərərin ödənilməsi proqramı, provinsial, yəni əyalət proqramları, kənd təsərrüfatı sektorunun müxtəlif sahalarinin inkişafı, həmçinin bu sahədə məhsuldarlığın artırılması üzrə təşəbbüslərin təmin edilməsi proqramları fəaliyyət göstərirlər. Kanadada aqrar sahənin və kənd təsərrüfati sektorunun dövlət dəstəyi mexanizmləri iki pilləlidir: birincisi federal səviyyə, ikincisi isə regional səviyyə ilə bağlıdır. [6]. Məhz aqrar sahəyə verilən dəstək tədbirlərinin nəticəsidir ki, Kanadada əqzaq təhlükəsizliyinin təmin edilməsinin əsasını təşkil edən taxılçılıqda yüksək məhsuldarlığa nail olunmuşdur. BMT-nin kənd təsərrüfatı və ərzaq təşkilatının 2020-ci ilə olan məlumatına görə Kanadada taxılçılıqda məhsuldarlığın səviyyəsi 35.1 sent/hektar, taxıl istehlalının həcmi 35183000 ton, taxıl məhsulları ilə özünütəminetmə səviyyəsi isə 380.2% təşkil etmişdir. Təşkilatın məlumatlarından görqündüyü kimi Fransa və Almaniyada da yüksək göstəricilərə nail olunmuşur. Belə ki, Fransada taxılçılıqda məhsuldarlığın səviyyəsi 66.8 sent/hektar, taxıl istehlalının həcmi 30144110 ton, taxıl məhsulları ilə özünütəminetmə səviyyəsi isə 284.0%, Almaniyada isə taxılçılıqda məhsuldarlığın səviyyəsi 78.2 sent/hektar, taxıl istehlalının həcmi 22172100 ton, taxıl məhsulları ilə özünütəminetmə səviyyəsi isə 131.1% təşkil etmişdir. Azərbaycanda isə kənd təsərrüfatında ekstensiv faktorların təsirinin güclü olmasının nəticəsidir ki, taxılçılıqda məhsuldarlığın səviyyəsi 30.9 sent/hektar, taxıl istehlalının həcmi 1818665 ton, taxıl məhsulları ilə özünütəminetmə səviyyəsi isə 57.1% təşkil etmişdir [7].

Kənd təsərrüfatında biznes mühitinin formalaşdırılması kompleks və çoxşaxəli faktorları özündə birləşdirir. Bu faktorlardan biri də, milli ərzaq bazarı ilə qlobal ərzaq bazarları arasında effektiv inteqrasiya münasibətlərinin formalaşdırılması ilə bağlıdır. Respublikamızda kənd təsərrüfatında biznes mühitinin daha çox cəlbedici xarakter daşımamasının ən mühüm səbəblərindən biri də milli ərzaq bazarının və eləcə də istehsalçı sektorların qlobal bazarlara effektiv şəkildə inteqrasiya olunmamasıdır. Bu baxımdan iqtisad elmləri doktoru Aygün Quliyevanın belə bir fikri ilə razılaşmaq mümkündür ki, müasir ticarət formatı kimi aşağıdakı istiqamətlər üzrə dünya ərzaq bazarı ilə milli ərzaq bazarları arasında əlaqələri ləngidən bir sıra səbəblər vardır. Bunlara aşağıdakılar daxildir: regional idarəetmə orqanları tərəfindən bazarın fəaliyyətinin strateji təhlili və planlaşdırılmasına kifayət qədər diqqət yetirilmir; dövlət tərəfindən həyata keçirilən sosial siyasətdə ərzaq bazarının rolu tam olaraq nəzərə alınmır; mövcud informasiya təminatı bazarların fəaliyyəti və iqtisadi göstəricilər sistemii barəsində, həmçinin lokal bazarların fəaliyyətinin qiymətləəndirilməsi ilə bağlı məhdud informasiya təqdim edir; bazar birtərəfli olaraq nəzərdən keçirilir və bu yanaşmada hesab olunur ki, bazarın fəaliyyətinin əsas istiqaməti alıcıların zəruri məhsullarla təmin olumasıdır. Lakin yaddan çıxarılır ki, satıcılar eyni zamanda potensial istehsalçılardır. Müasir nəzəriyyədə iqtisadiyyatın idarə olunması məsələləri araşdırılarkən ərzaq məhsulları bazarının müasir təcarət formatı kimi araşdırılmasına kifayət qədər diqqət yetirilmir; əraq bazarında ekoloji təmiz məhsulalrın dünya bazarına çıxarılmasına az diqqət yetirilir. [8].

İqtisad elmləri doktoru Anar Abbasovun fikrincə, possovet dövrunu yaşayan respublikamızın aqrar sektoru təbii-ekoloji, social-iqtisadi və texniki-texnoloji xarakterli problemlərlə üzləşmişdir. SSRİ dağıldıqdan sona meliorasiya və irriqasiya işlərinə, becərmə texnologiyalarına kifayət qədər vəsaitin ayrılmaması torpaqların şoranlaşmasına və



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

erroziyasına, su mənbələrinin tükənməsinə, bitki örtüyünün genefondunun məhv edilməsinə, ətraf mühitin tullantılarla çirklənməsinə səbəb olmuşdur. Son illərdə müşahidə olunan istiləşmə və quraqlıq bir sıra ərazilərdə ənənəvi istehsal sahlərini belə əlverişsiz etmişdir. Ölkənin əksər hissəsini dağlıq və dağətəyi ərazilər təşkil etdiyindən torpaq sahələrinin əkin dövriyyəsinə cəlb edilməsi çətinləşmişdir. Müxtəlif iqlim tiplərinin mövcud olması hər bir iqlim qurşağı üçün spesifik sort və texnologiyalardan istifadə edilməsini tələb edir. Daxili bazarın çatışmamazlıqlar kənd təsərrüfatı məhsullarının istehsalını iqtisadi cəhətdən əlverişsiz etdiyindən istehsalçılar intensive texnologiyaları tətbiq etməkdə maraqlı deyillər [3]. Aqrobiznes fəaliyyəti də son nəticədə kənd təsərrüfatında gəlirlərin səviyyəsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Bu da ilk növbədə onunla sıx əlaqədardır ki, aqrobiznes fəaliyyəti nəticəsində kənd təsərrüfatında məhsul satışı gerçəkləşdirir və məhsul satışından əldə edilən pul gəlirləri və mənfəət nəticə etibarilə kənd təsərrüfatında geniş təkrar istehsal prosesinin davamlılığını səciyyələndirir.

Kənd təsərrüfatında geniş təkrar istehsal prosesinə əhəmiyyətli dərəcədə təsir edilməsi baxımından aqrobiznesin rolu əhəmiyyətli dərəcədə yüksəkdir. Bu baxımdan aqrobiznes faliyyəti kənd təsərrüfatında geniş təkrar istehsal prosesinin uğurla başa çatdırılması baxımından aşağıdakı funksiyaları yerinə yetirir: növbəti illərdə geniş təkrar istehsal prosesinin müvəqqətlə həyata keçirilməsi üçün maliyyə resurslarının formalaşdırılması; ilk növbədə məhsul satışından əldə edilən mənfəətin formalaşdırılması və aqrar sahəyə investisiyaların cəlb edilməsi nəzərdə tutulur; aqrar sahənin maddi-texniki resurslarla təminatının həyata keçirilməsi; Bu funksiya əsas etibarilə mülkiyyət mənsubiyyətindən asılı olmayaraq bütün təsərrüfat subyektləri üçün zəruri olan xammal, maşın avadanlıqlar və digər resurslarla təmin edilməsini nəzərdə tutur; istehsal funksiyası. Bu əsas etibarilə xammal və resurslardan istifadə etməklə hazır məhsul əldə edilməsini və onların istehsalçılara təqdim edilməsini nəzərdə tutur; marketinq funksiyası. Aqrobiznesin marketinq funksiyası əsas etibarilə istehsalçıların ehtiyaclarının ödənilməsini, eləcə də müəssisələri və onun tərəf müqabilləri ilə arasındakı əlaqənin formalaşdırılmasını nəzərdə tutur; menecment funksiyası. Bu əsas etibarilə mütərəqqi idarəetmə təcrübəsinin yayılmasının və təşəbbüslərin genişləndirilməsoni özündə ehtiva edir; informasiya funksiyası. Aqrobiznesin informasiya funksiyası bir qayda olaraq kütləvi informasiya vasitələri və eləcə də digər müəsisələlər arasında münasibətlərin idarəedilməsini özündə əks etdirir. İqtisadiyyatın şaxələndirilməsi baxımından aqrobiznes mühitinin formalaşdırılması və onun bütün təsərrüfat subyektləri üçün əlverişli zəminə yönəldilməsi mühüm əhəmiyyət kəsb edən məqamlardandır. Xüsusilə qeyd etmək lazımdır ki, biznes mühiti dedikdə bütün təsərrüfat subyektləri və bütün investorlar üçün bərabər hüquq və imkanların yaradılması başa düşülür. Kənd təsərrüfatı məhsulları istehsalının artırılması və ərzaq məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsi məqsədilə aqrobiznes mühitinin formalaşdırılması mühüm əhəmiyyətə malikdir. Məlum olduğu kimi, hazırda kənd təsərrüfatı və onunla qarşılıqlı əlaqəyə malik olan məcmusu, o cümlədən aqrar sahədə çox funksiyanal bir sistem kimi xarakterizə olunur. Odur ki, fikrimizcə aqrar sahədə biznes mühiti də bütünlükdə təsərrüfatında və bütövlükdə aqrar sahədə çox funksiyanal bir sistem olması baxımından yanaşılmalı və aqrar sahədə biznes mühitinə təsir edən və kifayət qədər sinirtetik səmərə vermək iqtidarında olan amillərin qarşılıqlı təsiri aspektində tətbiq edilməlidir.

**Nəticə**

Aqrar sahədə əlverişli biznes mühitinin yaqadılması kənd təsərrüfatının davamlı inkişafının təmin edilməsinəxidmət edir. Aqrar sahənin spesifik özəllikləri biznes mühitinin formalaşdırılması zamanı da nəzərə alınmalıdır: aqrar sahənin çox funksiyalı xarakterə malik olmasl biznes mühitinin funksiyalarının reallaşdırılmasında da nəzərə alınmalıdır; biznes



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

mühitinin yaxşılaşdırılmasına yönəldilmiş tədbirlər ölkə əhalisinin ərzaq məhsullarına olan tələbatının ö dənilməsində yerli istehsalın xüsusi çəkisinin yüksəldilməsinə əlverişli yaradar; aqrar sahədə biznes mühitinin yaxşılaşdırılması iqtisadiyyatln çoxşaxəliliyinin təmin edilməsində də əhəmiyyətli rol oynaya bilər; aqrar sahədə biznes mühitinin yaxşılaşdırılması hesabına kənd təsərrüfatının bütün sahələrində iqtisadi səmərililiyin yüksəldilməsinə nail olmaq mümkündür və s.

**Ədəbiyyat**

1. Abbasov, A.B. Abbasov, S.A. Biznesin əsasları. Bakı 2017, 456 s
2. Основа огробизнеса под редаксие П.В. Лешровская, Саратов, 2017, 104 с.
3. Abbasov, A. Ərzaq təhlükəsizliyi. Bakı 2007. – 603 s.
4. İslam İbrahimov. Ətraf mühitin iqtisadiyyatı. Bakı 2015, 357 s.
5. Quliyev, E.A. Qida təhlükəsizliyinin gücləndirilməsi problemləri və strateji istiqamətləri. Bakı 2020, 464 s.
6. Попов, А.Ю. Канадский опыт государственного управления АПК/ инноваčионное обеспечение АПК. №2. 2007. – С.59-61.
7. FAOSTAT. Statistics Division. Food and Agriculture Organization of the United Nations. https://www.fao.org/faostat/en/#data/
8. Quliyeva, A.E. Dünya bazarı və Azərbaycn iqtisadiyyatı
9. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair
10. Strateji Yol Xəritəsi Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli
11. Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2016.– 177 s.
12. Ataşov, B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri (nəzəriyyə və praktika)
13. Bakı 2017. – 536 s.



***Рамиль Алоизат оглы Аскеров***

***Некоторые вопросы формирования бизнес-среды в аграрном секторе***

***Резюме***

*Цель исследования: Определить особенности бизнес-среды в аграрном секторе и функции бизнес-среды. Методология исследования: В исследовании использовались методы сравнительного анализа, группировки, обобщения и анализа. Значимость применения исследования: Обеспечение продовольственной безопасности и эффективного функционирования хозяйствующих субъектов в аграрном секторе, независимо от формы собственности, зависит от различных факторов, в том числе от формирования благоприятной деловой среды. С этой точки зрения важно определить специфику деловой среды в аграрном секторе и уточнить его функции, а также предвидеть особенности отрасли. Результаты исследования: Даны рекомендации по формированию благоприятной бизнес-среды в аграрном секторе, нейтрализации деструктивных факторов и тенденций, влияющих на бизнес-среду, с учетом интересов отрасли. Оригинальность и научная новизна исследования: - Определены условия и направления повышения эффективности предпринимательской деятельности в аграрном секторе, улучшения деловой среды, создания равных условий для хозяйствующих субъектов независимо от формы собственности.*

***Ключевые слова***: *- аграрный сектор, здания, деловая активность, бизнес-среда, деловая привлекательность, масштабное воспроизводство, производство сельскохозяйственной продукции.*

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

***Ramil Aloysat Asgarov***

***Some issues of the formation of the business environment in the agricultural sector***

***Summary***

*The purpose of the study: is to determine the specific features of the business environment in the agricultural sector and the functions of the business environment. Research methodology: comparative analysis, grouping, generalization and analysis methods were applied throughout the research. Significance of the research: ensuring food security and the effective operation of economic entities in the agricultural sector in a large-scale mode of reproduction, regardless of ownership, depends on various factors, including the formation of a favorable business environment. From this point of view, it is important to determine the specifics of the business environment in the agricultural sector and to specify its functions, as well as to anticipate the specific features of the industry. Results of the research: recommendations were made on the formation of a favorable business environment in the agricultural sector, the neutralization of destructive factors and trends affecting the business environment, taking into account the interests of the industry. Originality and scientific novelty of the research: conditions and directions have been identified to increase the efficiency of business activities in the agricultural sector, to improve the business environment, to create equal conditions for economic entities, regardless of ownership.*

***Keywords:*** *agrarian sector, business, business activity, business environment, business attractiveness, large-scale reproduction, production of agricultural products.*



***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 12.05. 2022.***
***Çapa qəbul olunub: 20.05.2022.***

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*